2019

Demokratik Təşəbbüslər İnstitutu
IDI
Institute for Democratic Initiatives

# Mülkiyyət hüququ ilə bağlı Avropa Məhkəməsinin Azərbaycana qarşı çıxardığı qərarların icrasına dair ARAŞDIRMA SƏNƏDİ

**MÜNDƏRİCAT**

**1. Qısaltmalar....................................................................................3**
**2. Xülasə..........................................................................................4**
**3. Giriş.............................................................................................5**
**4. Metodologiya.................................................................................6**
**5. AR-da mülkiyyət hüququnun qanunvericilik sistemində yeri və ona müdaxlənin əsasları....................................................................................7**
**6. Mülkiyyət hüququnun Beynəlxalq qanunvericilik sistemində yeri...........8**
**7. Avropa məhkəməsinin qərarlarının hüquqi təbiəti və onun icrasının hüquqiəsasları..............................................................................8**
**8. Daxili icra mexanizmləri..................................................................9**
**9. Avropa məhkəməsinin mülkiyyət hüququ ilə bağlı Azərbaycan barəsində çıxardığı qərarlar və onların icra vəziyyəti...........................................11**
**10.Nəticə..........................................................................................23**
**12. Tövsiyələr...................................................................................24**

## QISALTMALAR

| | |
|---|---|
| AR | Azərbaycan Respublikası |
| NK | Nazirlər Kabineti |
| CPM | Cinayət Prossesual Məcəllə |
| MM | Mülki Məcəllə |
| MPM | Mülki Prossesual Məcəllə |
| AİHM | Avropa İnsan Hüquqları Məhkəməsi |
| AİHK | Avropa İnsan Hüquqları Konvensiyası |

# XÜLASƏ

Mülkiyyət münasibətlərinin tənzimlənməsi və mövcud qanunvericilik çərçivəsində qorunması istənilən hüquqi dövlətin qarşısında duran əsas vəzifələrdən biridir. Bu təkcə daxili qanunvericilik çərçivsində yox, həmçinin beynəlxalq qanunvericilik çərçivəsində də öz əksini tapıb. Azərbaycan Respublikası Avropa Konvensiyasının ratifikasiya etdikdən sonra Konvensiyadan irəli gələn öhdəliklərə də əməl etməlidir. Xüsusilə də mülkiyyət hüququ bu münasibətlər içərisində mühüm yer tutur.

Təqdim olunan hesabatın giriş və metodologiya hissəsində Avropa məhkəməsi tərəfindən çıxarılan qərarların xarakteri, hesabatın hansı məqsədlə hazırlanması və hesabatın metodikası barədə məlumatlar verilir.

Hesabatın sonrakı hissəsi mülkiyyət hüququnun daxili və beynəlxalq qanunvericilik sistemində yeri ilə bağlı qanunvericiliyin analizinə həsr olunub. Analiz aparılarkən mülkiyyət hüququ ilə bağlı qanunvericiliyin tətbiq edildiyi zaman yaranan problemlər və onları doğuran səbəblər təhlil edilib. Bu problemlərin aradan qaldırılması üçün müvafiq tövsiyələr hazırlanıb və bu tövsiyələr hesabatın yekununda əks olunub.

Hesabatın yekun hissəsində isə Avropa məhkəməsinin mülkiyyət hüququ ilə bağlı Azərbaycan barəsində çıxardığı qərarlar və onların icrası vəziyyəti əks olunub. Belə ki, 37 şəxs barəsində 14 fərqli qərarlar müvafiq cədvəldə göstərilib. Cədvəldə ərizəçilər, kompensasiyalar və restitusyalar barədə məlumatlar, rəqəmlər də əks olunub.

Yekunda qeyd etmək yerinə düşər ki, mülkiyyət hüququ ilə bağlı mövzunun daxili və beynəlxalq qanunvericilik aspektindən aktuallığını nəzərə alaraq, əhatəli hesabat hazırlanıb. Hesabatda bu sahədə olan problemlər, mövcud qanunvericilikdəki və praktikadakı çatışmazlıqlar və problemin həllinə dair təkliflər yer alıb.

# GİRİŞ

**Ümumi məlumat.** Təqdim olunan hesabat mülkiyyət hüququ ilə bağlı Avropa məhkəməsi tərəfindən Azərbaycana qarşı çıxarılan qərarların icrası ilə bağlı hazırlanıb. Hesabatın hazırlanmasında vəkillərin təqdim etdiyi məlumatlardan istifadə olunub, yerli və beynəlxalq təşkilatların mülkiyyət hüququ ilə bağlı hesabatları nəzərdən keçirilib, həmin hesabatların müqayisəli təhlili aparılıb. Həmçinin bəzi şikayətçilərdən və onların vəkillərindən müsahibələr götürülüb. Bundan başqa Azərbaycanda hal-hazırdakı mövcud vəziyyət öyrənilib və qiymətləndirilib, yerli və beynəlxalq qanunvericilik aktları araşdırılıb.

Avropa məhkəməsinin qərarlarında dövlətlər üçün 2 cür göstəriş olur:

1)Ümumi

2)Fərdi

Qeyd etməliyik ki, hal-hazırkı iş üzrə fərdi hesabatlar mülkiyyətçinin mülkiyyət hüququna müdaxilə həmin mülkiyyətdən istifadə etməməklə, həm də məhrum etmə ilə bağlı olur.Yani qərar özündə həm mülkiyyət hüququnun pozulması ilə bağlı mülkiyyətçiyə ödəniləcək kompensasiyanı, həm də mülkiyyətçinin mülkiyyət hüququnun məhrum edilməsi ilə əlaqədar əmlakın mülkiyyətçiyə qaytarılmasını özündə ehtiva edir. Ona görə də yuxarıdakıları ümumiləşdirərək hesabat 2 istiqamətdə aparılan araşdırmaları, təhlilləri özündə ehtifa edir;

1) Kompensasiya
2) Restitusya

**Hesabatın hazırlanmasında məqsəd.** Məqsəd mülkiyyət hüququ ilə bağlı vəziyyəti gündəmə gətirmək, problemi doğuran səbəbləri və çıxış yollarını araşdırmaq, həllinə nail olmaq, problem ilə bağlı vəziyyətin yaxşılaşdırılması və həmçinin mülkiyyət hüququnun bərpası ilə bağlı yerli və beynəlxalq qanunvericilikdə təsbit edilmiş qaydada təmin olunmasına yardımçı olmaqdır. Hesabat qeyd olunan problemlərin həllinə təsir aləti kimi götürülür, problemin ictimailəşdirilməklə gündəmə gətirilməsi, həmçinin ictimai nəzarət funksiyasının həyata keçirilməsinə yardım kimi nəzərdə tutulur.

# METODOLOGİYA

Hesabat hazırlanmamışdan öncə hesabatın metodikası müəyyən olunub. Bunlar 2 mərhələyə ayrılır:

1) Mülkiyyət hüququ və Avropa məhkəməsinin qərarlarının Azərbaycan qanunnvericilik sistemində yeri ilə bağlı hüquqi şərait.
2) Avropa məhkəməsinin mülkiyyət hüququ ilə bağlı Azərbaycan barəsində çıxardığı qərarlar və onların icrası vəziyyəti.

İlkin mərhələdə Mülkiyyət hüququ və Avropa məhkəməsinin qərarlarının Azərbaycanın qanunnvericilik sistemində yeri ilə bağlı hüquqi şərait ilə bağlı araşdırma da özlüyündə 4 yerə ayrılır:

1) AR-da mülkiyyət hüququnun qanunvericilik sistemində yeri və ona müdaxlənin əsasları.
2) Mülkiyyət hüququnun Beynəlxalq qanunvericilik sistemində yeri.
3) Avropa məhkəməsinin qərarlarının hüquqi təbiəti və onun icrasının hüquqi əsasları.
4) Daxili icra mexanizmləri.

İkinci mərhələdə isə Azərbaycan Respublikasında mülkiyyət hüququ ilə bağlı çıxarılan qərarların icrası ilə bağlı mövcud vəziyyətin öyrənilməsi üçün qərarı çıxarmış vəkillərə müraciət olunub və onlar tərəfindən verilmiş məlumatlar hesabatın əsasını təşkil edir. Bundan başqa hesabatda daxili və xarici qanunvericilikdən mülkiyyət hüququ ilə bağlı müddəalar gətirilməklə problem işıqlandırılmağa çalışılmışdır. Əlavə olaraq qeyd olunmalıdır ki, Avropa məhkəməsinin qərarlarının əmlakla bağlı hissəsinə dair məlumat əldə etmək üçün vəkillərdən başqa Azərbaycan Respublikası Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə müraciət edilmiş lakin cavab almaq mümkün olmayıb. Əldə edilən məlumatlar sayəsində bu sahədə olan probemlər müəyyən edilib və hesabatda əks olunub.

# MÜLKİYYƏT HÜQUQU VƏ AVROPA MƏHKƏMƏSİNİN QƏRARLARININ AZƏRBAYCAN QANUNVERİCİLİK SİSTEMİNDƏ YERİ İLƏ BAĞLI HÜQUQİ ŞƏRAİT

## AR-da mülkiyyət hüququnun qanunvericilik sistemində yeri və ona müdaxlənin əsasları

Azərbaycanda mülkiyyət hüququ iki əsas hüquqi sənəd – Azərbaycan Respublikasının Konstitusiyası və Mülki Məcəllə ilə tənzimlənir.

Belə ki, Azərbaycan Respublikasının Konstisusyasının 29-cu maddəsinə görə hər kəsin mülkiyyət hüququ vardır. Konstitusiyada mülkiyyətin heç bir növünə üstünlük verilmir. İstər dövlət, istər bələdiyyə, istərsə də xüsusi mülkiyyət və bu mülkiyyətə olan hüquqlar qanunla bərabər şəkildə müdafiə olunur. Maddənin 1-ci hissəsindən də göründüyü kimi Konstitusiyada Azərbaycanda mülkiyyət hüququ təkcə insan hüquqları kateqoriyasına aid edilməklə məhdudlaşmır. O, həm də dövlətin əsas sütunlarından biri kimi çıxış edir.

ARK-nın 29-cu və MM-in 152-ci maddələrinə əsasən, mülkiyyət hüququ – şəxsin təkbaşına və ya başqaları ilə birlikdə ona mənsub əmlaka (əşyaya) öz istədiyi kimi sahib olmaq, ondan istifadə etmək və ona dair sərəncam vermək üzrə dövlət tərəfindən tanınan və qorunan hüququdur. Yəni şəxs öz mülkiyyətinə münasibətdə istənilən hərəkəti həyata keçirə bilər.

Həmin maddəyə görə heç kəs məhkəmənin qərarı olmadan mülkiyyətdən məhrum edilə bilməz. Əmlakın tam müsadirəsinə yol verilmir. Dövlət ehtiyacları və ya ictimai ehtiyaclar üçün mülkiyyətin özgəninkiləşdirilməsinə yalnız qabaqcadan onun dəyərini ədalətli ödəmək şərti ilə yol verilə bilər. Bundan başqa mülkiyyət Sosial öhdəliklərə səbəb olur. Burda "sosial öhdəlik" anlayışı olduqca geniş mənalarda istifadə olunur. Eyni zamanda konstitutsion və inzibati hüquq sistemində sosial öhdəlik daha çox dövlətin öhdəliyi kimi xarakterizə olunur. Bu səbəbdən "sosial öhdəlik" anlayışı ilə mülkiyyətçilərin kimin qarşısında öhdəlik daşıyacaqları və öhdəliklərinin sərhədlərinin hansı sahələri əhatə edəcəyi qeyri-müəyyəndir. Belə ki, mülkiyyətçilər müxtəlif sosial funksiya daşıya biləcək hansısa işlərin görülməsi,

tədbirlərin həyata keçirilməsi məqsədilə mülkiyyətində olan əmlaka müdaxilələrlə üzləşə bilər. Belə geniş mülahizəyə açıq olan qeyri-müəyyənlik ölkədə zəif müdafiə olunan xüsusi mülkiyyətə təminatı ciddi şəkildə zədələyir.

Bundan başqa 29-cu maddənin 6-cı bəndində görə sosial ədalət və torpaqlardan səmərəli istifadə məqsədi ilə torpaq üzərində mülkiyyət hüququ qanunla məhdudlaşdırıla bilər. Bu müddəa Xüsusi mülkiyyətə qarşı gərəksiz müdaxilələri artırır və məhdudiyyətlər tətbiq etməklə mülkiyyət hüququnun müdafiəsini daha da zəiflədir.

## Mülkiyyət hüququnun Beynəlxalq qanunvericilik sistemində yeri

Azərbaycan Respublikasının 25 yanvar 2001-ci il tarixdə insan hüquqları və əsas azadlıqları haqqında Avropa Konvensiyasına qoşulması və bununla da Avropa Insan Hüquqları Məhkəməsinin mütləq yurisdiksiyasının tanınması ilə əlaqədar olaraq bizim qanunvericilik sistemi üçün məhkəmənin presedent hüququ böyük əhəmiyyət kəsb etməyə başlamışdır. Konvensiyanın ratifikasya olunması və Məhkəmənin yurisdiksiyasının tanınması həm də o deməkdir ki, Azərbaycan Respublikasının bütün dövlət hakimiyyəti orqanlarının, xüsusən məhkəmə orqanlarının fəaliyyəti, onların qərarları və istifadə etdikləri prosedurlar, eyni zamanda, qanunvericilik orqanlarının qərarları Konvensiyanın müddəalarına zidd olmamalıdır və birmənalı olaraq Konvensiya Azərbaycanda qanunvericilik sistemin tərkib hissəsi oldu.

Azərbaycan Respublikasının tərəfdar çıxdığı İnsan Hüquqları və Əsas Azadlıqların Müdafiəsinə dair Avropa Konvensiyasına əlavə olunan 1 saylı Protokolun 1-ci maddəsinə görə, Hər bir fiziki və hüquqi şəxs öz mülkiyyətindən dinc istifadə hüququna malikdir. Heç kəs cəmiyyətin maraqları naminə, qanunla və beynəlxalq hüququn ümumi prinsipləri ilə nəzərdə tutulmuş şərtlər istisna olmaqla, öz mülkiyyətindən məhrum edilə bilməz.

Yuxarıda qeyd olunanlara əsasən bir daha əminliklə deyə bilərik ki, Azərbaycanda mülkiyyət hüququnun mühafizəsi təkcə daxili qaunvericiliklə yox həmçinin beynəlxalq qanunvericiliklə də qorunur.

## Avropa məhkəməsinin qərarlarının hüquqi təbiəti və onun icrasının hüquqi əsasları

İnsan hüquqları sahəsində əsas Avropa standartlarını özündə ehtiva edən 1950-ci il İnsan Hüquqları haqqında Avropa Konvensiyası və ona əlavə edilən 1, 4, 6 və 7 saylı Protokolların müdafiə mexanizmi olan İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarları da üzv dövlətlər üçün məcburidir. Konvensiyanın 46-cı maddəsində deyilir: "Razılığa gələn Yüksək Tərəflər məhkəmənin onların tərəf olduqları hər hansı bir iş üzrə çıxardığı son qərarı yerinə yetirməyi öz öhdələrinə götürürlər". Avropa Məhkəməsinin qərarlarının icrasına nəzarəti isə Nazirlər Komitəsi həyata keçirir. Avropa Şurasının nizamnaməsinin tələblərinə görə məhkəmə qərarını icra etməyən dövlət məsuliyyət daşıyır və bu həmin dövlətin Avropa Şurasında üzvlüyünün dayandırılmasına və əgər qərarın icra olunmaması davam edərsə, bu halda üzvlükdən çıxarılmasına səbəb ola bilər.

### Daxili icra mexanizmləri

Azərbaycanın hüquq sistemində problemli sahələrdən biri məhkəmə qərarlarının icrası məsələsidir. Şəxsin hər hansı məhkəmə aktında nəzərdə tutulan hüququnun dövlət məmurunun vasitəsilə həyata keçirilməsinə olan hüququ onun əsas hüquqlarından biridir. Təsadüfi deyil ki, Avropa İnsan Hüquqları Məhkəməsi Hornsbi Yunanıstana qarşı məhkəmə işində belə qərara gəlib ki, razılığa gələn dövlətlərin daxili hüquq sistemləri məcburi qüvvəyə malik yekun məhkəmə qərarının tərəflərdən birinin ziyanına olaraq icra olunmadan qalmasına yol versəydi, 6-cı maddə ilə təmin olunan məhkəməyə müraciət hüququ xəyali hüquq olardı. AİHM-nın presedent hüququna görə, AİHK-nın 6-cı maddəsi (ədalətli məhkəmə araşdırması hüququ) dinləmədən sonrakı prosedurları, məhkəmə qərarının icrası prosedurunu da əhatə edir.

Bu baxımdan da məhkəmə qərarlarının icrası ədalətin təmin edilməsi baxımından və dövlətdə hüquqi mexanizmlərin işləməsi baxımından mühüm əhəmiyyətə malikdir. Bir dövlətdə ki, şəxsin müəyyən hüququ məhkəmə aktında təsbit olunursa və həmin hüquq reallaşa bilmirsə, deməli, ədalət təmin olunmur, məhkəmə aktında təsbit olunan hüququn heç bir mahiyyəti qalmır. Bununla da həmin dövlətdə yaşayan insanların ədalət mühakiməsinə olan inamına sarsıdıcı zərbə vurur.

Azərbaycanda məhkəmə qərarlarının icrası 27 dekabr 2001-ci il tarixli "İcra haqqında" qanuna əsasən həyata keçirilir. Bundan əlavə, 28 dekabr 1999-cu il tarixli

"İcra məmurları" haqqında qanun da mövcuddur ki, həmin qanunda icra məmurlarının hüquq və vəzifələri, onların təminatı ilə bağlı müddəalar öz əksini tapmışdır.

Azərbaycan Respublikası qanunları ilə müəyyən edilmiş qaydada və müəyyən edilmiş müddət ərzində Məhkəmə prosesi yekunlaşdıqdan, yəni məhkəmə baxdığı işlə bağlı qərar qəbul etdikdən sonra həmin qərardan yuxarı məhkəmə orqanına qanunvericiliklə müəyyən edilmiş vaxt ərzində şikayət edilmədiyi təqdirdə qərar qüvvəyə minmiş hesab edilir və icraya yönəldilir. Məhkəmə qərarlarının icrası fəaliyyəti bir başa olaraq Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin şəhər və rayonlarda icra və probasiya şöbələri tərəfindən həyata keçirilir.

"İcra haqqında" Qanunun 12-ci maddəsinə görə icra məmuru icra sənədini aldığı gündən iki ay müddətində icra sənədində göstərilən tələblərin icra olunmasını təmin etməlidir. Müstəsna hallarda bu müddət bir ay ayadək uzadıla bilər.

Borclunu müəyyən hərəkətləri etməyə (məsələn, pul ödənişi etməyə) və ya müəyyən hərəkətləri etməkdən çəkinməyə (məsələn, qanunsuz müdaxiləni aradan qaldırmağa) məcbur edən icra sənədi üzrə icraata başladıqdan sonra, icra məmuru icra sənədində göstərilmiş hərəkətlərin borclu tərəfindən könüllü icrası üçün maksimum 10 günədək müddət təyin edir. Bununla bağlı borcluya göndərilmiş qərarın icra olunması barədə bildirişdə həmin müddət başa çatdıqdan sonra göstərilən tələblərin məcburi qaydada icra ediləcəyi göstərilir.

Borclu tərəfindən müəyyən olunmuş on günlük müddət ərzində məhkəmə aktı könüllü icra olunmadıqda icra məmuru həmin Qanunun 43.1-ci maddəsində əks olunmuş - borclunun əmlakı üzərinə həbs qoymaq və onu satmaq yolu ilə tələbin əmlaka yönəldilməsi; tələbin borclunun əmək haqqına, pensiyasına, təqaüdünə və sair gəlirlərinə yönəldilməsi; tələbin borclunun üçüncü şəxslərdə olan pul vəsaitlərinə və digər əmlakına yönəldilməsi; icra sənədində göstərilmiş müəyyən əşyaların borcludan götürülüb tələbkara verilməsi və ya Azərbaycan Respublikasının digər qanunvericilik aktlarına uyğun olaraq icra sənədinin icrasını təmin edən başqa məcburi icra tədbirlərinə müraciət etməlidir.

# AVROPA MƏHKƏMƏSİNİN MÜLKİYYƏT HÜQUQU İLƏ BAĞLI AZƏRBAYCAN BARƏSİNDƏ ÇIXARIĞI QƏRARLAR VƏ ONLARIN İCRA VƏZİYYƏTİ

Nazirlər Komitəsinin "Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarının və dostacasına həll sazişin şərtlərinin icrasına nəzarət haqqında" 10 may 2006-cı il tarixli Reqlamentinə əsasən, məhkəmə qərarlarının icrasına nəzarət edərkən Nazirlər Komitəsi aşağıdakı məsələləri araşdırır:

1) Ərizəçiyə ədalətli kompensasiyanın ödənilməsi (maddi və mənəvi ziyan, xərclər);
2) Fərdi tədbirlərin həyata keçirilməsi
3) Ümumi tədbirlərin həyata keçirilməsi

## Ərizəçiyə ədalətli kompensasiyanın ödənilməsi

Qərar yalnız ədalətli kompensasiyanın ödənilməsi ilə bağlıdırsa cavabdeh-dövlət tərəfindən zərərçəkənə kompensasiya ödənildikdən sonra qərarın icrası ilə bağlı Nazirlər Komitəsinin funksiyası bitmiş sayılır. Kompensasiya cavabdeh dövlətin büdcəsindən ödənilir. Azərbaycan Respublikası Prezidentinin 8 noyabr 2003-cü il tarixli «İnsan hüquqları üzrə Avropa Məhkəməsi yanında Azərbaycan Respublikasının səlahiyyətli nümayəndəsi haqqında» Fərmanında hər il Azərbaycan Respublikası dövlət büdcəsinin layihəsi hazırlanarkən Avropa Məhkəməsi qarşısında Azərbaycan Respublikasının maraqlarının müdafiəsi və həmin Məhkəmənin qərarlarının icrası üçün maliyyə vəsaitinin ayrılmasının nəzərdə tutulması Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılıb. Avropa Məhkəməsi yanında Azərbaycan Respublikasının səlahiyyətli nümayəndəsi isə öz növbəsində iddiaçıya pul kompensasiyasının ödənilməsi və ya pozulmuş hüquq və azadlıqların bərpa olunması haqqında Məhkəmə tərəfindən qərar qəbul edildiyi halda, qərarın tam və vaxtında icra edilməsi məqsədilə aidiyyəti dövlət orqanlarına məlumat verir.

Tərtib olunan hesabatda 37 şəxs barəsində 14 fərqli qərar çıxarılıb. Hesabatda görüldüyü kimi 33 şəxslə bağlı qərarlar kompensasiyalar barəsində çıxarılıb. Bunların 8-i yalnızca kompensasiyalar barədədir. Kompensasiyalar barəsində çıxarılan 33 şəxslə bağlı qərarlar tam şəkildə icra olunub. Ümumilikdə 33 şəxs barəsində Avropa məhkəməsi tərəfindən çıxarılan qərarlarda kompensasiyaların miqdarı 354 229,06 avro təşkil edir. Bundan əlavə, BBC News[1] Azərbaycancanın verdiyi məlumata əsasən Maliyyə Nazirliyinin saytında verilən məlumata görə, 2017-ci ildə dövlət büdcəsindən AİHM-də Azərbaycanın maraqlarını qorumaq və orada çıxarılan qərarların icrasına 1 milyon manat ayrılıb. 2018-ci ildə isə bu məbləğ 100 faiz artırılıb və rəqəm 2 milyon manatdan çox olub.

## Fərdi tədbirlərin həyata keçirilməsi

Avropa Məhkəməsinin qərarından sonra milli məhkəmələr tərəfindən işə yenidən baxılması qərarın icrası üçün dövlət tərəfindən həyata keçirilən ən səmərəli fərdi tədbirlərdən biridir. Avropa Şurası Nazirlər Komitəsinin «Avropa İnsan Hüquqları Məhkəməsinin qərarları nəticəsində milli səviyyədə bəzi işlərə yenidən baxılması və ya icraatın bərpası» adlı tövsiyəsində (2000) də işə yenidən baxılmasının əvvəlki vəziyyətin bərpası (restitutio in integrum) üçün ən səmərəli vasitə olduğu qeyd edilir.

Hesabata gəldikdə isə 29 şəxslə bağlı qərarlar isə daxili məhkəmələrin qərarlarının icrası ilə bağlı olub. Bunlardan 25-i həm kompensasiya, həm də daxili məhkəmələrin qərarlarının icrası yəni restitusiyadır. 4 qərar isə ancaq restitusiya ilə bağlı olub. Daxili məhkəmə qərarlarının icrası ilə bağlı çıxarılan 29 şəxslə bağlı qərarlar isə hələki icra olunmayıb. Ərizəçilərin hamısı vaxtilə mənzilləri qaçqın və məcburi köçkünlər tərəfindən zəbt olunmuş şəxslərdir. Yerli məhkəmələr həmin mənzillərin boşaldılıb sahiblərinə geri qaytarılması haqda qərarlar çıxarıb, amma uzun illərdir ki, icra olunmur. Dövlət də bu illər ərzində sözügedən qərarların icrası – mənzillərin boşaldılması üçün heç bir addım atmayıb və ümumiyyətlə adekvat tədbir görməyib. Daxili məhkəmə qərarlarının icra vəziyyəti ilə bağlı Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə rəsmi sorğu ünvanlanıb, lakin Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi daxili məhkəmə qərarlarının icrası ilə bağlı sorğuya cavab verməməklə bir daha qətnamənin icrasında maraqlı olmadığını göstərib. Bu isə

[1] https://www.bbc.com/azeri/azerbaijan-45655489

Konvensiyanın pozulmasına gətirib çıxarır. Azərbaycan Respublikası Prezidentinin "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında 1 iyul 2004-cü il tarixli 298 №-li Sərəncamının 2-ci bəndində tələb edilir ki, "Azərbaycan Respublikasının aidiyyəti dövlət orqanlarının rəhbərlərinə tapşırılsın ki, məcburi köçkünlər öz doğma torpaqlarına qayıdana, həmçinin müvəqqəti yaşamaq məqsədilə yeni qəsəbələrə və evlərə köçürülənədək mülkiyyətindən asılı olmayaraq 1992-1998-ci illərdə müvəqqəti məskunlaşdıqları ictimai binalardan, mənzillərdən, torpaq sahələrindən və digər obyektlərdən çıxarılması hallarına yol verməsinlər". Bu tələbin Azərbaycan Respublikasının Konstitusiyasına, Avropa İnsan Hüquqları Konvensiyasının 1 saylı Protokolunun 1-ci maddəsinə, Azərbaycan Respublikasının mülkiyyətin müdafiəsinə aid qanunlarına zidd olduğu aydındır. Hətta Məcburi köçkünlər və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında 21 may 1999-cu il tarixli, 669 IQ №-li Qanunun 5-ci maddəsində də tələb edilir ki, "Məcburi köçkünlərin müvəqqəti məskunlaşmasına o halda yol verilə bilər ki, bu digər şəxslərin hüquqlarını və qanuni maraqlarını pozmasın. Belə hallar mövcud olduqda müvafiq icra hakimiyyəti orqanları məcburi köçkünlərin həmin yaşayış məntəqəsi daxilində başqa yaşayış sahəsinə köçürülməsini təmin etməlidirlər ". Qeyd edilən Sərəncamdan istifadə edən bir sıra məcburi köçkün ailələri vətəndaşların xüsusi mülkiyyətində olan və ya qanunla onlara məxsus mənzillərdə yerləşmiş və dövlət tərəfindən məcburi köçkünlərin həmin mənzillərdən çıxarılması üçün nəinki heç bir tədbir görmür, hətta çox hallarda belə cəhdlərin qarşısını alır.

"Demokratiya və İnsan Hüquqları Resurs Mərkəzi"nin rəhbəri, vəkil Əsabəli Mustafayevə[2] görə **"Dövlət öz işini vətəndaşın hüququnu pozmaq hesabına görməməlidir"**

"Belə çıxır ki, hökumət özü də bu vəziyyətlə razıdır. Halbuki məcburi köçkünləri yerləşdirmək dövlətin vəzifəsidir və hökumət bunu hansısa başqa bir vətəndaşının mülkiyyət hüququnu pozmaq hesabına həyata keçirməməlidir. Məcburi köçkünlərin sosial təminatı haqqında qanunda da göstərilib ki, onların yerləşdirilməsinə görə icra hakimiyyəti məsuliyyət daşıyır. Elə yerləşdirilməlidir ki, digər vətəndaşların da hüquqları pozulmasın", - Əsabəli Mustafayev bildirib.

[2] http://propertyrights.az/news/avropa-m-hk-m-si-22-mulkiyy-tcinin-xeyrin-q-rar-verib/

Müdafiəçinin sözlərinə görə, bu şikayətlərlə bağlı Avropa Məhkəməsi ilə Azərbaycan hökuməti arasında sorğu-sual (kommunikasiya) mərhələsində onların hökumətə təklifi olub. Mənzil Məcəlləsində "sosial kirayə müqavilətsi" anlayışı var. Müdafiə tərəfinin təklifi də bununla bağlı olub: "Orada belə bir hal var ki, əgər hökumət məcburi köçkünü daimi yaşayış yeri ilə təmin edə bilmirsə, onun üçün mənzil kirayələyə bilər. Yəni kirayə pulunu dövlət ödəyir. Yaxud da mənzilləri zəbt olunmuş vətəndaşlara münasibətdə dövlət bu addımı ata bilər. Yəni aylıq kirayə pulları mənzillərin sahiblərinə verilə bilər ki, onlar da indiki kimi çətin vəziyyətdə qalmasınlar. Məndə olan məlumata görə, qaçqın və məcburi köçkünlər tərəfindən zəbt olunmuş evlərin sayı təxminən 4-5 mindir. Amma hökumət bu təkliflə razılaşmadı".

Hüquqşünas Xalid Ağalıyev[3] Avropa məhkəmələrinin qərarlarının icra olunması ilə bağlı "Facebook" şəbəkəsində verdiyi məlumata əsasən, Avropa Şurasına üzv ölkələr arasında Avropa Məhkəməsinin qərarlarını ən az icra edən ölkə Azərbaycandır.

## Ümumi tədbirlərin həyata keçirilməsi

Məhkəmənin konkret qərarını icra edərkən dövlət, həmçinin, ümumi tədbirlər də həyata keçirməlidir. Bu, dövlətin həm qanunvericiliyini və inzibati praktikasını Konvensiyaya uyğunlaşdırmaq, həm də gələcəkdə analoji pozuntuların qarşısını almaq öhdəliyindən irəli gəlir. Qərarın icrası ilə bağlı müvafiq dövlət ümumi tədbirlər həyata keçirməklə hüquq pozuntusuna gətirib çıxaran səbəbi aradan qaldırmış olur. Fərdi tədbirlərdən fərqli olaraq ümumi tədbirlərin spesifik cəhəti ondan ibarətdir ki, bu tədbirlər konkret qərar çərçivəsindən kənara çıxır və dövlətdən konkret fərdlə bağlı olmayan tədbirlərin görülməsini tələb edir. Ümumi tədbirlərə əsas etibarilə, milli qanunvericiliyin, hüquq tətbiqetmə praktikasının təkmilləşdirilməsi, dövlətdaxili qanunvericilik aktlarının Avropa İnsan Hüquqları Konvensiyasına, Avropa Şurasının hüquq standartlarına uyğunlaşdırılması, insan hüquqları ilə bağlı yeni qanunların qəbulu, məhkəmə-hüquq islahatlarının aparılması, Avropa Məhkəməsinin qərarlarının cavabdeh-dövlətin rəsmi dilində nəşr edilməsi və aidiyyəti dövlət qurumları arasında yayılmasını aid etmək olar.

[3] https://novator.az/2019/04/09/az%C9%99rbaycan-avropa-m%C9%99hk%C9%99m%C9%99si-q%C9%99rarlarinin-90-faizini-icra-etm%C9%99yib/?fbclid=IwAR1syeph1_XiVDW_RpFWix3HWx-0l2WjuuUReJm9vyTLi3E7-RBOBcDmryg

| № | İşin nömrəsi | Qərarın tarixi | Qurban | Qərarın icrası nə ilə bağlıdır | Kompensasiya | Restitusya |
|---|---|---|---|---|---|---|
| 1 | 59005/08 | 18.12.2012 | Zərrintac Heydərova | Cavabdeh dövlət 3 ay ərzində mənəvi ziyana görə 3600 avro və məhkəmə xərclərinə görə isə 500 avro ödəməlidir. | 4100 avro kompensasiya ödənilmişdir | Yoxdur |
| 2 | 25315/08 | 18.12.2012 | Aybəniz Yusifova | Cavabdeh dövlət 3 ay ərzində mənəvi ziyana görə 900 avro və məhkəmə xərclərinə görə isə 500 avro ödəməlidir. | 1400 avro kompensasiya ödənilmişdir | Yoxdur |
| 3 | 25986/10 | 30.05.2012 | Qəhrəman Adıgözəlov | Cavabdeh dövlət 3 ay ərzində mənəvi ziyana görə 3600 avro və məhkəmə xərclərinə görə 500 avro ödəməli və 3 ay ərzində ərizəçilərin xeyirlərinə olan yerli məhkəmələrin qətnamələrin icra olunmasını təmin etməlidir. | 3600 avro kompensasiya ödənilmişdir | Yerli məhkəmənin çıxardığı qətnamə icra olunmamışdır. |
| 4 | 3961/10 | 03.05.2012 | Tatyana Qoluşko | Cavabdeh dövlət 3 ay ərzində maddi ziyana görə 5700 avro və mənəvi ziyana görə 1800 avro ödəməli və 3 ay ərzində ərizəçilərin xeyirlərinə olan yerli məhkəmələrin qətnamələrin icra | 7500 avro kompensasiya ödənilmişdir | Yerli məhkəmənin çıxardığı qətnamə icra olunmamışdır. |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | | | olunmasını təmin etməlidir. | | |
| 5 | 16785/11 | 05.12.2013 | Saadiya Əliyeva | Cavabdeh dövlət 3 ay ərzində maddi ziyana görə 2500 avro,mənəvi ziyana görə 1200 avro və məhkəmə xərclərinə görə isə 500 avro ödəməlidir. | 4200 avro kompensasiya ödənilmişdir | Yoxdur |
| 6 | 73346/10 | 05.12.2013 | Sevda Məmmədova | Cavabdeh dövlət 3 ay ərzində maddi ziyana görə 11 192 avro,mənəvi ziyana görə 2100 avro və məhkəmə xərclərinə görə isə 683,52 avro ödəməlidir. | 13 975,52 avro kompensasiya ödənilmişdir | Yoxdur |
| 7 | 16806/11 - 61696/11 | 10.10.2013 | Rozaxanım İsrafilova və Miryusif Ağalarov | Cavabdeh dövlət 3 ay ərzində ərizəçilərin xeyirlərinə olan yerli məhkəmələrin qətnamələrin icra olunmasını təmin etməlidir. | Yoxdur | Yerli məhkəmənin çıxardığı qətnamə icra olunmamışdır. |
| 8 | 7526/10 | 05.12.2013 | Dəmir Məmmədov | Cavabdeh dövlət 3 ay ərzində maddi ziyana görə 4290 avro, mənəvi ziyana görə 3000 avro və məhkəmə xərclərinə görə 500 avro ödəməli və 3 ay ərzində ərizəçilərin xeyirlərinə olan yerli məhkəmələrin qətnamələrin icra olunmasını təmin etməlidir. | 7790 avro kompensasiya ödənilmişdir | Yerli məhkəmənin çıxardığı qətnamə icra olunmamışdır. |
| 9 | 7709/10 | 03.05.2012 | Təvəkkül Əliyev | Cavabdeh dövlət 3 ay ərzində maddi ziyana görə 5600 avro, mənəvi ziyana görə 3000 avro və məhkəmə xərclərinə görə 500 avro ödəməli və 3 ay ərzində ərizəçilərin xeyirlərinə olan yerli məhkəmələrin qətnamələrin icra | 9100 avro kompensasiya ödənilmişdir | Yerli məhkəmənin çıxardığı qətnamə icra olunmamışdır. |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | | | olunmasını təmin etməlidir. | | |
| 10 | 56547/10 | 26.06.2012 | Zülfəli Hüseynov | Cavabdeh dövlət 3 ay ərzində maddi ziyana görə 13 200 avro və mənəvi ziyana görə 3600 avro ödəməlidir. | 16800 avro kompensasiya ödənilmişdir. | Yoxdur |
| 11 | 38798/07 | 22.04.2010 | Sərvinaz Gülməmmədov | Cavabdeh dövlət 3 ay ərzində maddi ziyana görə 11 042 avro və mənəvi ziyana görə 4800 avro ödəməli və 3 ay ərzində ərizəçilərin xeyirlərinə olan yerli məhkəmələrin qətnamələrin icra olunmasını təmin etməlidir. | 15842 avro kompensasiya ödənilmişdir. | Yerli məhkəmənin çıxardığı qətnamə icra olunmamışdır. |
| 12 | 50757/07 | 22.04.2010 | Vəkil Həsənov | Cavabdeh dövlət 3 ay ərzində maddi ziyana görə 10 376 avro və mənəvi ziyana görə 4800 avro ödəməli və 3 ay ərzində ərizəçilərin xeyirlərinə olan yerli məhkəmələrin qətnamələrin icra olunmasını təmin etməlidir. | 15176 avro kompensasiya ödənilmişdir. | Yerli məhkəmənin çıxardığı qətnamə icra olunmamışdır. |
| 13 | 19276/08 | 18.12.2012 | Vera Andreyeva | Cavabdeh dövlət 3 ay ərzində mənəvi ziyana görə 3600 avro ödəməlidir. | 3600 avro kompensasiya ödənilmişdir. | Yoxdur |
| 14 | 50711/07 | 08.07.2010 | Asif İsgəndərov | Cavabdeh dövlət 3 ay ərzində maddi ziyana görə 13 051 avro və mənəvi ziyana görə 4800 avro ödəməli və 3 ay ərzində ərizəçilərin xeyirlərinə olan yerli məhkəmələrin qətnamələrin icra olunmasını təmin etməlidir. | 17 851 avro kompensasiya ödənilmişdir. | Yerli məhkəmənin çıxardığı qətnamə icra olunmamışdır. |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 15 | 50793/07 | 08.07.2010 | Vasif İsmayılov | Cavabdeh dövlət 3 ay ərzində maddi ziyana görə 12 191,35 avro və mənəvi ziyana görə 4800 avro ödəməli və 3 ay ərzində ərizəçilərin xeyirlərinə olan yerli məhkəmələrin qətnamələrin icra olunmasını təmin etməlidir. | 17 851 avro kompensasiya ödənilmişdir. | Yerli məhkəmənin çıxardığı qətnamə icra olunmamışdır. |
| 16 | 50848/07 | 08.07.2010 | Mirtəranə Kərimova | Cavabdeh dövlət 3 ay ərzində maddi ziyana görə 11 369 avro və mənəvi ziyana görə 4800 avro ödəməli və 3 ay ərzində ərizəçilərin xeyirlərinə olan yerli məhkəmələrin qətnamələrin icra olunmasını təmin etməlidir. | 16 169 avro kompensasiya ödənilmişdir. | Yerli məhkəmənin çıxardığı qətnamə icra olunmamışdır. |
| 17 | 50894/07 | 08.07.2010 | Samid Kərimov | Cavabdeh dövlət 3 ay ərzində maddi ziyana görə 10 407,8 avro və mənəvi ziyana görə 4800 avro ödəməli və 3 ay ərzində ərizəçilərin xeyirlərinə olan yerli məhkəmələrin qətnamələrin icra olunmasını təmin etməlidir. | 15 207.8 avro kompensasiya ödənilmişdir. | Yerli məhkəmənin çıxardığı qətnamə icra olunmamışdır. |
| 18 | 50924/07 | 08.07.2010 | Sədaqət Əhmədova | Cavabdeh dövlət 3 ay ərzində maddi ziyana görə 12196 avro və mənəvi ziyana görə 1600 avro ödəməli və 3 ay ərzində ərizəçilərin xeyirlərinə olan yerli məhkəmələrin qətnamələrin icra olunmasını təmin etməlidir. | 13 796 avro kompensasiya ödənilmişdir. | Yerli məhkəmənin çıxardığı qətnamə icra olunmamışdır. |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 19 | 58265/09 | 05.12.2013 | Ramiz Vəliyev | Cavabdeh dövlət 3 ay ərzində maddi ziyana görə 14 890 avro, mənəvi ziyana görə 4800 avro və məhkəmə xərclərinə görə 500 avro ödəməlidir. | 20 190 avro kompensasiya ödənilmişdir. | Yoxdur |
| 20 | 50766/07 | 08.07.2010 | Simuzər Hacıyeva | Cavabdeh dövlət 3 ay ərzində maddi ziyana görə 7174 avro və mənəvi ziyana görə 4800 avro ödəməli və 3 ay ərzində ərizəçilərin xeyirlərinə olan yerli məhkəmələrin qətnamələrin icra olunmasını təmin etməlidir. | 11 974 avro kompensasiya ödənilmişdir. | Yerli məhkəmənin çıxardığı qətnamə icra olunmamışdır. |
| 21 | 50786/07 | 08.07.2010 | Tatyana Tokarevaya | Cavabdeh dövlət 3 ay ərzində maddi ziyana görə 11 456 avro və mənəvi ziyana görə 4800 avro ödəməli və 3 ay ərzində ərizəçilərin xeyirlərinə olan yerli məhkəmələrin qətnamələrin icra olunmasını təmin etməlidir. | 16 256 avro kompensasiya ödənilmişdir. | Yerli məhkəmənin çıxardığı qətnamə icra olunmamışdır. |
| 22 | 50871/07 | 08.07.2010 | Aslan Hüseynova | Cavabdeh dövlət 3 ay ərzində maddi ziyana görə 10 545.91 avro və mənəvi ziyana görə 4800 avro ödəməli və 3 ay ərzində ərizəçilərin xeyirlərinə olan yerli məhkəmələrin qətnamələrin icra olunmasını təmin etməlidir. | 15 345,91 avro kompensasiya ödənilmişdir. | Yerli məhkəmənin çıxardığı qətnamə icra olunmamışdır. |
| 23 | 50913/07 | 08.07.2010 | Gülər Əliyeva | Cavabdeh dövlət 3 ay ərzində maddi ziyana görə 10 376 avro və mənəvi ziyana görə 4800 avro ödəməli və 3 ay ərzində ərizəçilərin xeyirlərinə olan yerli | 15 176 avro kompensasiya ödənilmişdir. | Yerli məhkəmənin çıxardığı qətnamə icra olunmamışdır. |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | | | məhkəmələrin qətnamələrin icra olunmasını təmin etməlidir. | | |
| 24 | 7867/09 | 03.05.2012 | Lalə Qasımova | Cavabdeh dövlət 3 ay ərzində maddi ziyana görə 12 300 avro və mənəvi ziyana görə 3600 avro ödəməlidir. | 15 900 avro kompensasiya ödənilmişdir. | Yoxdur |
| 25 | 19426/10 | 03.05.2012 | Süleyman Süleymanov | Cavabdeh dövlət 3 ay ərzində maddi ziyana görə 3700 avro və mənəvi ziyana görə 1500 avro ödəməli və 3 ay ərzində ərizəçilərin xeyirlərinə olan yerli məhkəmələrin qətnamələrin icra olunmasını təmin etməlidir. | 5200 avro kompensasiya ödənilmişdir. | Yerli məhkəmənin çıxardığı qətnamə icra olunmamışdır. |
| 26 | 51920/09 | 03.05.2012 | Bünyad Baxşıyev | Cavabdeh dövlət 3 ay ərzində ərizəçilərin xeyirlərinə olan yerli məhkəmələrin qətnamələrin icra olunmasını təmin etməlidir. | Yoxdur | Yerli məhkəmənin çıxardığı qətnamə icra olunmamışdır. |
| 27 | 52329/09 | 03.05.2012 | Sofya Zudova | Cavabdeh dövlət 3 ay ərzində ərizəçilərin xeyirlərinə olan yerli məhkəmələrin qətnamələrin icra olunmasını təmin etməlidir. | Yoxdur | Yerli məhkəmənin çıxardığı qətnamə icra olunmamışdır. |
| 28 | 65799/10 | 03.05.2012 | Gülzar Əkbərova | Cavabdeh dövlət 3 ay ərzində maddi ziyana görə 10 000 avro, mənəvi ziyana görə 3600 avro və məhkəmə xərclərinə görə 2000 avro ödəməli və 3 ay ərzində ərizəçilərin xeyirlərinə olan yerli məhkəmələrin qətnamələrin icra olunmasını təmin etməlidir. | 15 600 avro kompensasiya ödənilmişdir. | Yerli məhkəmənin çıxardığı qətnamə icra olunmamışdır. |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 29 | 65856/10 | 03.05.2012 | Tofiq Məmmədov | Cavabdeh dövlət 3 ay ərzində maddi ziyana görə 5700 avro, mənəvi ziyana görə 3000 avro və məhkəmə xərclərinə görə 2000 avro ödəməli və 3 ay ərzində ərizəçilərin xeyirlərinə olan yerli məhkəmələrin qətnamələrin icra olunmasını təmin etməlidir. | 10 700 avro kompensasiya ödənilmişdir. | Yerli məhkəmənin çıxardığı qətnamə icra olunmamışdır. |
| 30 | 65864/10 | 03.05.2012 | Asim Qabulov | Cavabdeh dövlət 3 ay ərzində maddi ziyana görə 5700 avro, mənəvi ziyana görə 3000 avro və məhkəmə xərclərinə görə 2000 avro ödəməli və 3 ay ərzində ərizəçilərin xeyirlərinə olan yerli məhkəmələrin qətnamələrin icra olunmasını təmin etməlidir. | 10 700 avro kompensasiya ödənilmişdir. | Yerli məhkəmənin çıxardığı qətnamə icra olunmamışdır. |
| 31 | 65880/10 | 03.05.2012 | İlqar Əhmədov | Cavabdeh dövlət 3 ay ərzində maddi ziyana görə 9880 avro, mənəvi ziyana görə 3600 avro və məhkəmə xərclərinə görə 2000 avro ödəməli və 3 ay ərzində ərizəçilərin xeyirlərinə olan yerli məhkəmələrin qətnamələrin icra olunmasını təmin etməlidir. | 15 480 avro kompensasiya ödənilmişdir. | Yerli məhkəmənin çıxardığı qətnamə icra olunmamışdır. |
| 32 | 65886/10 | 03.05.2012 | Mahirə Əliyeva | Cavabdeh dövlət 3 ay ərzində maddi ziyana görə 9880 avro, mənəvi ziyana görə 3600 avro və məhkəmə xərclərinə görə 2000 avro ödəməli və 3 ay ərzində ərizəçilərin xeyirlərinə olan yerli məhkəmələrin qətnamələrin icra | 15 480 avro kompensasiya ödənilmişdir. | Yerli məhkəmənin çıxardığı qətnamə icra olunmamışdır. |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | | | olunmasını təmin etməlidir. | | |
| 33 | 65892/10 | 03.05.2012 | Sara Əliyeva | Cavabdeh dövlət 3 ay ərzində maddi ziyana görə 9880 avro, mənəvi ziyana görə 3600 avro və məhkəmə xərclərinə görə 2000 avro ödəməli və 3 ay ərzində ərizəçilərin xeyirlərinə olan yerli məhkəmələrin qətnamələrin icra olunmasını təmin etməlidir. | 15 480 avro kompensasiya ödənilmişdir. | Yerli məhkəmənin çıxardığı qətnamə icra olunmamışdır. |
| 34 | 65906/10 | 03.05.2012 | Almaz Əkbərova | Cavabdeh dövlət 3 ay ərzində maddi ziyana görə 3100 avro, mənəvi ziyana görə 1500 avro və məhkəmə xərclərinə görə 2000 avro ödəməli və 3 ay ərzində ərizəçilərin xeyirlərinə olan yerli məhkəmələrin qətnamələrin icra olunmasını təmin etməlidir. | 6600 avro kompensasiya ödənilmişdir. | Yerli məhkəmənin çıxardığı qətnamə icra olunmamışdır. |
| 35 | 2354/11 | 03.05.2012 | Nazim Namazov | Cavabdeh dövlət 3 ay ərzində maddi ziyana görə 5200 avro, mənəvi ziyana görə 2400 avro və məhkəmə xərclərinə görə 2000 avro ödəməli və 3 ay ərzində ərizəçilərin xeyirlərinə olan yerli məhkəmələrin qətnamələrin icra olunmasını təmin etməlidir. | 9600 avro kompensasiya ödənilmişdir. | Yerli məhkəmənin çıxardığı qətnamə icra olunmamışdır. |
| 36 | 2372/11 | 03.05.2012 | Sehrada Bağırova | Cavabdeh dövlət 3 ay ərzində maddi ziyana görə 9880 avro,mənəvi ziyana görə 3600 avro ödəməli və məhkəmə xərclərinə görə 2000 avro və 3 ay ərzində | 15 480 avro kompensasiya ödənilmişdir. | Yerli məhkəmənin çıxardığı qətnamə icra olunmamışdır. |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | | | ərizəçilərin xeyirlərinə olan yerli məhkəmələrin qətnamələrin icra olunmasını təmin etməlidir. | | |
| 37 | | 03.05.2012 | Yadigar Mirzəyev | Cavabdeh dövlət 3 ay ərzində ərizəçilərin xeyirlərinə olan yerli məhkəmələrin qətnamələrin icra olunmasını təmin etməlidir. | Yoxdur | Yerli məhkəmənin çıxardığı qətnamə icra olunmamışdır. |

# NƏTİCƏ

Hesabatın tərtib olunması zamanı 37 qərarla bağlı araşdırmalar nəticəsində məlum olmuşdur ki, 33 qərarda göstərilən kompensasiyalar Azərbaycan Respublikası tərəfindən ödənilmişdir. Lakin daxili məhkəmələrin qərarlarının icrası ilə bağlı 29 qərar isə Azərbaycan Respublikası tərəfindən hələ də icra olunmayıb.

Hesabatın tərtib edilməsi zamanı aparılan araşdırma zamanı məlum oldu ki, təkcə qərarların icrası ilə bağlı yox, həm də qərarların icrası mexanizmində müəyyən boşluqlar var. Belə ki, Avropa məhkəməsinin qərarları üzrə konkret olaraq məsul bir dövlət qurumu yoxdur. Əslində, belə bir qurumun bizim ölkədə də yaradılmasına zərurət vardır. Həm də bu qurumun fəaliyyəti ərizəçilər, onların nümayəndələri, bütünlükdə cəmiyyət üçün açıq olmalıdır. Bu 2 məsələ yekunda Azərbaycanda mülkiyyət hüququnun tam şəkildə həyata keçirilməsinə mane olur və yekunda Avropa məhkəməsi tərəfindən çıxarılan qərarların icra olunmamasına gətirib çıxarır.

Sonda qeyd olunması yerinə düşər ki, bütün yuxarıda göstərilənlərin əsas səbəbi dövlətin Avropa məhkəməsininin çıxardığı qərarlara etinasız yanaşmasında, qərarların icrası ilə bağlı vahid mexanizmin olmamasında və daxili qanunvericilikdə boşluqların olmasındadır. Bütün bunlar hesabatda detallı şəkildə öz əksini tapmışdır.

## TÖVSİYƏLƏR

Azərbaycanda mülkiyyət hüququ ilə bağlı problemlərin aradan qaldırılması və Avropa məhkəməsinin mülkiyyət hüququ ilə qərarlarının vaxtında və dəqiq icra olunması üçün aşağıdakı tövsiyələrə əməl etməsi lazımdır:

1) Azərbaycan Respublikasının Avropa Şurası Nazirlər Komitəsi ilə bu sahədə olan qarşılıqlı fəaliyyəti gücləndirilməlidir.

2) Avropa məhkəməsinin çıxardığı qərarların tez və dəqiq icra olunması üçün ayrıca xüsusi qurum yaradılmalıdır.

3) Hakimləri və müxtəlif dövlət orqanlarını bu sahədə baş verən pozuntuların və özbaşınalıqların aradan qaldırılması  və maariflənməsi üçün təlimlər keçirilməlidir.

4) Ərizəçilərin və onların nümayəndələrinin, Vətəndaş Cəmiyyəti institutlarının Avropa Məhkəməsinin qərarlarının icrasının təmin olunmasında iştiraklarına şərait yaradılmalıdır.